AMEA-nın Xəbərləri (biologiya və tibb elmləri), cild 68, №1, səh. 135-141 (2013)

“Ətraf mühit dəyişiklikləri və bitki müxtəlifliyinin qorunması” mövzusunda Beynəlxalq Konfrans

21-23 aprel 2013-cü il
Bakı, Azərbaycan

Fəxri sədr: *Akademik Əhliman Əmiraslanov*

Elmi Komitə:
Sədr: Prof. Dr. Validə Əli-zadə – Head of Committee
Üzvlər: Prof. Dr. Gregor Kozlovski
Prof. Dr. Munir Özturk
Prof. Dr. Volker Roemheld

Proqram Komitəsi:
Sədr: AMEA-nın müxbir üzvü, Prof. Dr. Iradə Hüseynova
Üzvlər: Prof. Steven McCutcheon
Prof. Thomas Borsch
Dr. Vahid Fərzəliyev

Təşkilati Komitə:
Sədr: Dr. Esmira Əlirzayeva
Üzvlər: Dr. Tamilla Şirvani
Dr. Vüqar Kərimov
Rəna Rəhimli
Məlahət Hüseynova
Aida Dadaşova

Beynəlxalq elmi komitə: Prof. Alan John Martin Baker
Prof. Nicolas Dickinson
Prof. Valter Horst
Prof. Ervin Grill
Prof. Nicolaus von Viren

Layihənin rəhbəri: Dr. Esmira Alirzayeva
Həmrəhbər: Prof. Dr. Gregor Kozlovski

AMEA Botanika İnstitutunun təqdim etdiyi “Ətraf mühit dəyişiklikləri və bitki müxtəlifliyinin qorunması” mövzusunda Beynəlxalq Konfrans keçirilməsi ilə baglı layihə Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun (EİF) 2012-ci il 2-ci qrant müsabiqəsinin (EİF-2012-2(6)) qalibi oldu. EİF-in maliyyə-təşkilatı dəstəyilə 21-23 aprel 2013-cü il tarixində Bakıda bu mövzuda beynəlxalq konfrans təşkil edildi.

Tədbirin proqramı əhatəli idi və zəngin biomüxtəlifliyi olan ekosistemlərin davamlı inkişafı üçün ətraf mühitin sağlamlığının və keyfiyyətinin yüksəldilməsinə yönəldilmiş geniş diapazonlu mövzuların müzakirəsini əhatə edirdi. Son iki onillikdə ətraf mühitin dəyişilməsi haqda biliklər və anlamlar genişlənmişdir və kimya, mikrobiologiya, riyaziyyat, fiziki və bioproses mühəndisliyi daxil olmaqla, təcrübəyə və fundamental məlumatlara əsaslanan “ilk prinsiplər” üzrə yanaşmadan uzaqlaşmışdır. Bu nailiyyətlər belə yanaşmaların kompüterlə simulyasiya üçün riyazi modellərlə əvəz edilməsinə imkan yarada bilər.


Acknowledgements
• Co-editor and coauthors of the book
• Lee Wolfe
• George Bailey
• Chris Hoehamer
• Drew Ekman
PHYTOREMEDIATION
Transformation and Control of Contaminants
Azerbaijan Milli Elmlər Akademiyası
Botanika İnstitutu
Azerbaijan National Academy of Sciences
Institute of Botany
BEYNƏLXALQ KONFRANS









15 ölkənin 30 təşkilatının aparıcı alim və mütəxəssislərinin iştirakı ilə təşkil edilən konfrans bu sahədə mühüm xidmətləri olan dünyanın aparıcı mütəxəssislərinin bir yerə toplaşmasına imkan yaratdı. Məqsədlər dərin anlayışları, uyğun tədqiqat və nümunələr üzrə qabaqcıl bilikləri təkmilləşdirmək, ən son kəşflərin müzakirəsini təşkil etmək, remediasiya yanaşmaları üçün gələcək strategiyaları araşdırmaq və özəl və dövlət institutlarının mütəxəssisləri ilə sahələrarası əməkdaşlıq yaratmaq idi. Ətraf mühit üzrə elm sahələrinin yeni inkişaf səviyyəsi, problemləri və geniş istiqamətliliyi, xüsusilə də sənayeləşən ölkələrdə bu ixtisasa yiyələnməkdə olan yeni nəsil gənc alimlər və mühəndislər üçün çox çətinliklər yarada bilər. Onların belə nüfuzlu elmi görüşlərdə aktiv iştirakları, ərazidə vəziyyəti yaxından müzakirə etmək imkanları bu sahəyə aid biliklərinin, həmçinin praktik işlərdə təcrubələrinin istifadəsinə cox təkan verə bilər.

Biotik və abiotik faktorlar, ətraf mühitin çirklənməsi, iqlim dəyişikliyi və s. daxil olmaqla, ətraf mühitin dəyişilməsi bitkilərin məhsuldarlığı və qidalanma keyfiyyətini məhdudlaşdıran kritik faktordur, həmçinin insanlar və heyvanların da sağlamlığı üçün potensial risk yaradır. Bu problemin həlli ətraf mühitinin ağır metallar və neft məhsulları ilə cirklənməsi artmaqda olan, həmçinin zəngin bitki müxtəlifliyi ilə fərqlənən Azərbaycan üçün xüsusilə vacibdir. Ölkənin çoxsaylı endem və faydalı növlərə malik bitki müxtəlifliyi ətraf mühitin təhlükəsinə məruz qalır.

Torpağın qorunması və bərpası dünyadakı ekoloji vəziyyətin pisləşməsi ilə əlaqədar daha da aktuallaşır. Torpaq, su və hava üçün ən çox yayılan çirkləndiricilər ağır metallar, karbohidrogenlər, qalıcı üzvi cirkləndiricilər, xlorlu üzvi pestisidlər, herbisidlər və başqa ksenobiotiklərdir ki, onlar da quru və su ekosistemlərində canlı orqanizmlər üçün müxtəlif sağlamlıq problemləri yarada bilər. Biomüxəlifliyin qorunması bütün canlı varlıqlar üçün bioloji həyatın mühafizəsində mühüm rol oynayir. Ətraf mühit dəyişikliyinə cox həssas olan ekosistemlərin müəyyənləşdirilməsi müvafiq mühafizə siyasətinin və ekosistemlərin davamlılığının artırılması üçün təcrübələrin inkişafında əsas addım ola bilər.

Ekosistemlərin funksional hissəsi kimi bitkilər və ətraf mühit arasında əlaqə mürəkkəb təbiətlidir. Bitkilər ətrafda baş verən dəyişiklikərə sürətli reaksiya verən mürəkkəb orqanizmlərdir. Müxtəlif çirkləndiricilərin fitotoksikliyinə həssas və ya davamlı olaraq bitkilər müxtəlif çirkləndiricilərin artıq miqdarlarına cavab və tolerantlıq mexanizmlərinə görə fərqlənirlər. Çirkli ərazilərdə bitən bəzi ibtidai və ali bitki növləri bu şəraitdə yaşamaq və çirkləndiriciləri yüksək dozada toplaya bilmək qabiliyyətinə malikdirlər.

Deqradasiyaya uğrayan yaşayış ərazilərinin yenilənməsi və bərpası üçün yerli bitki növlərinin qorunması və istifadəsi, cirklənmiş ərazilərin remediasiyası üçün ekoloji əlverişli strategiyaların və qiymətli, nadir və nəsli kəsilmək təhlükəsi olan bitki növlərinin qorunması üçün müasir yanaşmaların hazirlanması təşəbbüsləri bu elmi beynəlxalq görüşdə müzakirə edildi.

Uyğun elmi forumlar əsasən biomüxtəlifliyə təhlükə yarada bilən ayrı-ayrı ətraf mühit problemlərinin müzakirəsinə həsr edilib. Tədbirdə ilk dəfə olaraq iki müxtəlif istiqamət – ətraf mühitin dəyişməsi və bitki mühafizəsi birlikdə müzakirəyə çıxarıldı, həmçinin Azərbaycanın zəngin florasının gərgin şəraitində olan nadir və nəsli kəsilməkdə olan bitki növlərinin müasir qorunma yollarının işlənib hazırlanması üçün əhəmiyyətli addım oldu.

Konfransın Açılış mərasimində AMEA-nın müvafiq institutlarının, təhsil ocaqlarının, müxtəlif nazirliklərin, idarə və təşkilatların, neft şirkətlərinin, məktəb və liseylərin nümayəndələri iştirak edirdi. Tədbiri AMEA Biologiya və Tibb Elmləri Bölməsinin akademik-katibi, akademik Əhliman Əmiraslanov giriş sözü ilə açdı, belə tədbirlərin əhəmiyyətini vurğuladı və bitki müxtəlifliyinin qorunması istiqamətində ölkədə aparılan geniş aspektli işlər və son illər bu sahədə dövlət dəstəyi haqda geniş məlumat verdi.

EİF-in icraçı direktoru Elçin Babayev qonaqları və iştirakçılarına biologiya elminin müxtəlif sahələri üzrə EİF tərəfindən dəstəklənən uğurlu layihələri haqda məlumat verdi və onların Azərbaycanda elmin inkişafı üçün əhəmiyyətindən danışdı.





ARDNŞ-in Ekologiya İdarəsinin rəisi Azər Əliyev, ABŞ Ətraf Mühitin Mühafizəsi Agentliyinin milli eksperti və aparıcı ətraf mühit mühəndisi, Georgia Universitetinin professoru Steven McCutcheon, layihə rəhbəri b.ü.f.d. Esmira Əlirzayeva öz çıxışlarında Konfransın əhəmiyyətini və perspektivlərini vurğuladılar.

Plenar məruzə ilə çıxış edən AMEA Botanika İnstitutunun direktoru, prof. Validə Əli-zadə Azərbaycanın zəngin florası, botaniki-coğrafi ərazilər üzrə bitki müxtəlifliyinin yayılması, İnstitutun ətraf mühit çirklənməsi və bitki müxtəlifliyinin qorunması istiqamətində həyata keçirdiyi müştərək elmi layihələr haqda geniş məlumat verdi.

Konfrans zamanı müxtəlif mövzular müzakirə edildi:

- Ətraf mühit dəyişikliyi (mineral elementlərin çatışmazlığı və artıqlığı, çirklənmə, iqlim dəyişklikliyi, biotic faktorlar və s.);
- Ətraf mühit remediasiyasına bioloji müdaxilə;
- Bitkilərin qorunması, istifadəsi və problemlər;
- Remediasiya texnologiyası və strategiyaları

Konfrans yalnız xarici iştirakçıların spektr genişliyinə görə deyil, həmçinin onların professional əhəmiyyətinə görə də fərqlənirdi. Qeyd edilməlidir ki, dünyanın qabaqcıl botaniki təşkilatlarının tanınmış alim və mütəxəssisləri ilk dəfə olaraq Bakıda bu Konfransda görüşdülər. Onlardan Botanika Bağlarının Beynəlxalq Qorunma təşkilatının Qlobal Proqramının direktoru Dr. Suzanne Şarrok (Böyük Britaniya), CİTES - “Növlərinin Beynəlxalq Ticarəti Haqqında» Konvensiyasının Avropa üzrə məsul nümayəndəsi Prof. Maurizio Sajeva (İtaliya), Berlin Botanika Bağı və Botanika Muzeyinin direktoru Prof. Tomas Borş və kuratoru Dr. Gerald Parolly (Almaniya), Millenium Toxum Bankının rəhbəri Dr. Paul Smith və Qafqaz proqramının rəhbəri Dr. Clare Trivedi (Böyük Britaniya), Fribourg Botanika Bağının kuratoru Prof. Gregor Kozlovski

(İsveçrə), fitoremediasiya sahəsində böyük töhvəsi olan Prof. Alan John Martin Baker (Böyük Britaniya) və Prof. Steven McCutcheon (ABŞ), eskperimental botanika sahəsində məhşur alimlər: Hannover Universitetinin Bitki Qidalanması İnstitutunun direktoru Prof. Valter Horst (Almaniya), Munich Texniki Universitetinin Botanika kafedrasının müdiri Prof. Ervin Grill (Almaniya), Linkoln Universitetinin Təbiət Elmləri Fakultəsinin Ekologiya Bölməsinin müdiri Prof. Nikolas Dikinson (Yeni Zellandiya), Bitki Genetikası və Qida Bitkilərinin Tədqiqatı İnstitutunun (İPK) Fiziologiya və Hüceyrə Biologiyası Şöbəsinin müdiri Prof. Nikolas von Viren (Almaniya), Ege Universiteti (Türkiyə) və Putra Universitetinin (Malaysia) Meşəçilik Fakültəsinin məsləhətçisi Prof. Munir Öztürk (Türkiyə), Metla Tədqiqat Mərkəzinin (Finlandiya) aparıcı alimləri Dr. Liisa Ukonmanaaho və Dr. Tiina Nieminen, Putra Universiteti Meşəçilik Fakültəsinin dekanı Dr. Faridah Hanum İbrahim (Malaysia), Jamia Hamdard Universitetinin Elm fakültəsinin dekanı Prof. Muhammad İqbal (Hindistan), Hyderabad Universitetinin Bitki Tədqiqatları Bölməsinin aparıcı mütəxəssisi Majeti Naraşima Varaprasad (Hindistan), Debrecen Universitetinin Elm və Texnologiya Fakültəsi Botanika bölməsinin aparıcı alimi Dr. Gabor Sramko (Macarıstan) və s. elmi yenilikləri haqda məruzələrlə çıxış etdilər. Cəmi 3 gün davam edən tədbirdə çox geniş müzakirələr aparıldı, maraqlı fikir və təcrübə mübadiləsi oldu.

Tədbir zamanı elmi müzakirələrlə yanaşı, xarici qonaqlar Bakı şəhəri və müxtəlif tarixi abidələrlə, həmçinin ARDNŞ-in Ekoparkı və Ekologiya laboratoriyası ilə tanış oldular, Şəhidlər xiyabanını ziyarət etdilər.